# Tələbələr Qərbi Azərbaycanla bağlı problemləri BMT formatında müzakirə ediblər

**Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) dəstəyi və Qərbi Azərbaycan İcmasının təşəbbüsü ilə "Qərbi Azərbaycan müzakirəsi: MUN Simulyasiya Konfransı" keçirilib.**






AzMİU-dan bildirilib ki, BMT Baş Assambleyası modelinin simulyasiya konfransı Qərbi Azərbaycanla bağlı beynəlxalq problemləri və həll yollarını müzakirə etmək, gənclərin diplomatik bacarıqlarını inkişaf etdirmək və onların bu mövzuda məlumatlılığını artırmaq məqsədi daşıyıb.

Açılışda çıxış edən rektor Gülçöhrə Məmmədova gənclərin bu cür təşəbbüslərlə çıxış etməsini yüksək qiymətləndirib və onların beynəlxalq proseslərə bələd olmalarının, analitik düşüncə qabiliyyətlərinin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Rektor söyləyib ki, tələbələrin belə simulyasiya konfranslarında iştirakı gələcək peşəkar fəaliyyətləri üçün mühüm pillədir və bu platformalar gənclərin həm vətənpərvərlik ruhunun güclənməsinə, həm də dünyagörüşlərinin genişlənməsinə istiqamət verir.

Qərbi Azərbaycan İcmasının Aparat rəhbəri Qalib Qasımov isə Qərbi Azərbaycan məsələsinin tarixi və hüquqi aspektlərinə toxunaraq, bu kimi simulyasiya konfranslarının gənclərin milli məsələlərə olan diqqətini artırmaq baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib. O vurğulayıb ki, Qərbi Azərbaycandan məcburi köçkün düşmüş soydaşlarımızın hüquqlarının müdafiəsi və onların dinc yolla, könüllü və təhlükəsiz şəkildə geri qayıdışının təmin olunması beynəlxalq hüquqa əsaslanan ədalətli bir tələbdir. Qalib Qasımov bu təşəbbüsün gənclər tərəfindən gündəmə gətirilməsini təqdirəlayiq hal kimi dəyərləndirib və bu istiqamətdə maarifləndirici tədbirlərin davamlı olmasının vacibliyini qeyd edib.

Daha sonra ATGTİ-nin sədri Rəşad Zeynalov gənclərin ictimai fəallığının və təşəbbüskarlığının vacibliyinə diqqət çəkərək bu cür tədbirlərin tələbələrin intellektual inkişafına, analitik düşüncə və diplomatik bacarıqlarının formalaşmasına mühüm töhfə verdiyini bildirib. O qeyd edib ki, MUN formatlı simulyasiya konfransları gənclərin qlobal problemlərə yerli baxış bucağından yanaşması, milli məsələləri beynəlxalq kontekstdə müzakirə etməyi öyrənmələri baxımından olduqca faydalıdır. Rəşad Zeynalov bu təşəbbüsə görə təşkilatçılara təşəkkürünü bildirərək ATGTİ-nin hər zaman gənclərin inkişafına yönəlmiş bu kimi layihələri dəstəkləməyə davam edəcəyini vurğulayıb.

Konfrans plenar sessiyalarla davam edib.

Azərbaycan və ingilis dillərində keçirilən müzakirələrə ümumilikdə 50 tələbə qatılıb.

Azərbaycan.- 2025.- 17 aprel (№ 75).- S.11.